“MƏKTƏBƏ HAZIRLIĞIN TƏŞKİLİ QAYDALARI"NIN TƏSDİQ EDİLMƏSİ HAQQINDA

AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 1.8-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

QƏRARA ALIR:

1. "**Məktəbə hazırlığın təşkili Qaydaları"** təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

A.Rasi-zadə

Azərbaycan Respublikasının

Baş naziri

Bakı şəhəri, 8 yanvar 2010-cu il

№ 4

Azərbaycan Respublikasi Təhsil Nazirinin əmri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin göstərilən qərarının icrası ilə əlaqədar

ƏMR EDİRƏM :

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qeyd edilən qərarı rəhbərlik və icra üçün qəbul edilsin.

2. Naxçıvan MR Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Gəncə Şəhər Təhsil İdarəsi, rayon (şəhər) təhsil şöbələri:

- Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilmiş "**Məktəbəhazırlığın təşkili "Qaydaları"**ndan irəli gələn tələblərin həyata keçirilməsini təmin etsinlər.

3. Ümumi şöbə (İ.Mirzəyev) əmrin çoxaldılaraq yerlərə çatdırılmasını təmin etsin.

4. İctimaiyyətlə əlaqə şöbəsi (B.Hüseynzadə) bu əmrin "Azərbaycan müəllimi" qəzetində və "Təhsil xəbərləri" məcmuəsində dərc olunmasını təmin etsin.

5. Əmrə nəzarəti öz üzərimə götürürəm.

Misir Mərdanov

02.02.2010

№ 128